





# Neft sənayesinin canlı əfsanəsi

***Bu günlərdə xalqımız görkəmli neftçi-alim və geoloq, ARDNŞ-in birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyini böyük təntənə və qədirbilənliklə qeyd edir. Prezident İlham Əliyevin bu əlamətdar hadisənin dövlət səviyyəsində keçirilməsi üçün sərəncam imzalaması və yubilyarı müstəqil Azərbaycanın ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif etməsi, xalqımızın və dövlətimizin öz dəyərli övladlarına hörmət və ehtiramının növbəti ifadəsi olaraq, bu hadisəyə böyük təntənə gətirdi.***

***Çoxillik davamlı elmi axtarışları və onun bir çox uğurlu nəticələrinin istehsalata tətbiqi ilə Azərbaycanın neft sənayesinin inkişafına misilsiz töhfələr vermiş Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə yanvarın 14-də keçirilən ümumrespublika mərasimində Prezident İlham Əliyev bu böyük insanın xalqımız, dövlətimiz qarşısında müstəsna xidmətlərini çox yüksək qiymətləndirərək bildirdi: "Əziz Xoşbəxt müəllim, mən sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz həm sovet dövründə, həm də müstəqillik dövründə Azərbaycan xalqı naminə, Azərbaycanın inkişafı yolunda böyük işlər görmüsünüz, böyük töhfələr vermisiniz. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın neft-qaz sənayesinin inkişafında sizin böyük rolunuz var".***

Dövlət başçısı qeyd etdi ki, Xoşbəxt Yusifzadə 20-dən çox neft-qaz yatağının kəşf edilməsində bilavasitə iştirak edib, bir çox hallarda bu işlərin rəhbəri olub. O yataqlar arasında "Azəri", "Çıraq" və "Günəşli" xüsusi yer tutur. Xəzərdə ən böyük neft yatağı kimi sovet dövründə onun aşkarlanması böyük hadisə olub. "Azəri-Çıraq-Günəşli"nin müstəqillik dövründə işlənilməsi isə tarixi hadisədir: "Çünki bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil. Bu yatağın işlənilməsi və yataqdan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir".

Azərbaycan dövlətinin ali mükafatını– ümummilli lider Heydər Əliyevin adı ilə şərəflənmiş ordeni yubilyara təqdim edən dövlət başçısı məxsusi olaraq qeyd etdi ki, ulu öndər Heydər Əliyev Xoşbəxt müəllimə, onun sözünə çox inanırdı. Onun sözü mütləq həqiqət hesab olunurdu və bir çox hallarda bu, təsdiq edilmişdir. Sonda Prezident İlham Əliyev dedi: "Mən elə bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə göstəriş verirəm ki, gəmiçiliyin yeni gəmisinə Xoşbəxt Yusifzadənin adı verilsin".

Mərasimdə 90 illik ömrünün Azərbaycanın neft sənayesinin inkişafına xidmətdə keçən illərinin ən önəmli epizodlarını yad edən Xoşbəxt Yusifzadə bioqrafiyasındakı ən parlaq faktların ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin adları ilə bağlı olduğunu məmnunluqla vurğuladı: "Mən Heydər Əliyevlə 1969-cu ildə tanış olmuşam. 1970-ci ildə Xəzərin cənubdan şimalına qədər bütün işlənməsini bizə tapşırdılar. Onda Heydər Əliyev məni birliyin baş geoloqu təyin elədi. Heydər Əliyev o vaxtlar elə işlər görürdü, sanki, bilirdi ki, Azərbaycan müstəqil olacaq, gələcəkdə bunlar hamısı Azərbaycana lazım olacaq".

Yubilyar qeyd etdi ki, Azərbaycan müstəqil olandan sonra Heydər Əliyev ikinci dəfə respublikaya rəhbərlik edəndə də neft sənayesinin inkişafını önə çəkdi: "Respublikanın vəziyyətini ancaq neft sənayesi ilə düzəltmək olardı. Ona görə də cənab Heydər Əliyev taktikanı düzgün seçdi. Onun neft strategiyası Azərbaycanı bu dərəcəyə gətirib çıxardı. Mən Heydər Əliyevin qarşısında həmişə baş əyirəm".

Qocaman alim-geoloq ömrünün son 25 illik bir dövrünü əhatə edən, eyni zamanda, onun bioqrafiyasını daha da zənginləşdirən, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlardan bəhs edərək dedi: "İlham Əliyev bütün aləmə, nəinki Azərbaycana, bütün Avropaya, bütün dünyaya özünü təsdiq elədi ki, doğrudan da, bu respublikaya gözəl bir rəhbər gəlib. Onun gördüyü işləri saymaqla qurtaran deyil. Azərbaycan öz simasını 180 dərəcə dəyişib. Ümumiyyətlə, cənab İlham Əliyev Azərbaycana, bütün dünyaya başa saldı ki, müstəqillik, Azərbaycanın müstəqil olması nə deməkdir".

Təntənəli mərasimdə iştirak edən Birinci vitse-prezident Mehriban Əliyeva həmin gün rəsmi İnstaqram səhifəsindəki paylaşmasında görkəmli neftçi-alim Xoşbəxt Yusifzadəni səmimi təbrik edərək yazmışdır: "Xoşbəxt müəllim Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmış canlı əfsanədir. O, əsl Azərbaycan ziyalısı kimi şəxsi keyfiyyətləri, biliyi, zəngin təcrübəsi, elmi və əməli fəaliyyəti ilə bütün xalqımızın səmimi sevgi və hörmətini qazanmışdır. Bu əlamətdar gündə Xoşbəxt müəllimi 90 illik yubileyi və Azərbaycan Respublikasının ən yüksək dövlət təltifi olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı diləyir və ən xoş arzularımı çatdırıram!".

Gəlin, "neft sənayemizin canlı əfsanəsi"nin şərəfli və zəngin ömür yoluna bir daha nəzər salaq.

Xoşbəxt Bağı oğlu Yusifzadə 1930-cu il yanvarın 14-də Bakının Pirşağı kəndində anadan olmuşdur. Uşaqlıqdan oxuyub-öyrənməyə hədsiz marağı olan gələcəyin neftçi-alimi orta təhsilini doğulduğu kənddəki və qonşu Kürdəxanıdakı məktəblərdə almışdır. O dövrün bir çox gənci kimi Xoşbəxt də Bakını dünyada tanıtmış neftçıxarma ilə bağlı ali təhsil almağa üstünlük vermişdir. 1947-ci ildə Azərbaycan Sənaye İnstitutuna (indiki Neft və Sənaye Universiteti) daxil olan gənc soydaşımız burada neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisasına yiyələnmiş, sonrakı taleyini bütünlüklə sevib-seçdiyi fəaliyyət sahəsinə – Azərbaycanda neft-qaz yataqlarının kəşfiyyatı və hasilatı işinə həsr etmişdir.

Ali məktəbi bitirdiyi 1952-ci ildən əmək fəaliyyətinə SSRİ Neft Sənayesi Nazirliyinin Bakıdakı "Dövlətxüsusineftlayihə" kontorunda başlamış Xoşbəxt Yusifzadə çox keçməmiş elmi axtarışlarını birbaşa təcrübə ilə əlaqələndirmək üçün yeni yaradılmış "Dənizneft" Birliyinə üz tutmuş, burada neft elmini və istehsalatını daha da yaxınlaşdırmaq yönündə böyük uğurlar qazanmışdır. O illərdə dünya miqyasında dənizdə neftçıxarmanın özülü qoyulmuş əfsanəvi Neft Daşları bu dərin zəkalı və cəsur neft mütəxəssisini də qarşısıalınmaz bir maraqla cəzb etmiş, zaman keçdikcə onun özünü də əfsanəvi neft-geoloq kimi məşhurlaşdırmışdır. İlk vaxtlar mühəndis və bölmə rəisi vəzifələrində çalışan Xoşbəxt bilik-bacarığı ilə seçilərək 1954-cü ildə "Gürganneft" trestində (indiki "Neft daşları" NQÇİ) birinci mədənin böyük geoloqu vəzifəsinə irəli çəkilmişdir. Bu etimadı doğrultmaqla o, sonrakı illərdə dəniz neft yataqlarının kəşfiyyatı və işlənilməsinin məşhur iştirakçılarından və rəhbərlərindən biri kimi tanınmışdır.

Gənc neftçi-geoloq 1958-1960-cı illərdə "Neft Daşları" mərkəzi elmi-tədqiqat və istehsalat işləri sexinin baş geoloqu və rəisi işləmişdir. 1960-cı ildə o, "Gürganneft" rəisinin müavini-baş geoloq vəzifəsinə təyin olunmuş və bu vəzifədə 1963-cü ilin oktyabr ayınadək çalışmış, 1963-cü ildən 1970-ci ilədək "Dənizneft" İstehsalat Birliyinin geoloji-kəşfiyyat şöbəsinin rəisi–baş geoloqun müavini olmuşdur. Həmin illərdə Xoşbəxt Yusifzadə yenilikçi və perspektivli neft geoloqu kimi SSRİ Neft Sənayesi Nazirliyinə məsul işə dəvət edilsə də, yurd sevgisi, öz xalqına xidmət etmək amalı üstün gəlmiş, sonrakı mənalı həyatı və məhsuldar fəaliyyəti bu seçimin doğruluğunu dönə-dönə sübut etmişdir.

Xoşbəxt Yusifzadə ötən əsrin 60-cı illərində böyüyüb ümumittifaq neftçıxarma istehsalat birliyinə çevrilmiş "Xəzərdənizneft"in əsas rəhbər simalarından biri olmuşdur. 1970--1992-ci illərdə burada baş direktorun müavini– baş geoloq vəzifəsində ciddi uğurlar qazanmışdır. Şan-şöhrətə çatmış neftçi-alim və istehsalat rəhbəri kimi o, Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra yaradılmış "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentinin müşaviri olmuşdur. Xoşbəxt Yusifzadə 1994-cü ildən ARDNŞ-nin geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti olmuş, 2004-cü ildən isə birinci vitse-prezidentdir.

Neft və qaz sahəsində elmin nailiyyətlərini istehsalatın zəruri tələbləri ilə müstəsna bir çeviklıklə və uzaqgörənliklə əlaqələndirməyi bacaran Xoşbəxt Yusifzadə 1960-cı ildə "Neft quyularının və laylarının tədqiq edilməsi və Neft Daşları yatağının cənub-qərb qanadının neftli obyektlərinin səmərəli işlənilməsi və istismarı məsələləri" mövzusunda namizədlik və 1987-ci ildə "Dəniz neft və qaz yataqlarında axtarış-kəşfiyyat işlərinin sürətlə aparılmasının prinsip və metodları" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir.

Akademik Xoşbəxt Yusifzadənin elmi araşdırmaları neft və qaz-kondensat yataqlarının kəşfində və işlənməsində qarşıya çıxan problemlərin həll edilməsi işinə böyük töhfə olmuşdur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə aparılan elmi-tədqiqat işlərinin nəticələri bu məşhur alimin və görkəmli istehsalat təşkilatçısının nəşr olunmuş 200-dək elmi əsərində, o cümlədən 12 monoqrafiyasında və 8 ixtirasında öz əksini tapmışdır. Dünya şöhrətli neftçi-geoloqa 2005-ci ildə professor elmi adı verilmiş, 2007-ci ildə isə o, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Xoşbəxt Yusifzadənin neftçıxarma sahəsində elmi-təcrübi yenilikləri və uğurları keçmiş SSRİ-də, eləcə də dünyada həmişə böyük maraq doğurmuş, o, beynəlxalq aləmdə də nüfuzlu alim və istehsalat rəhbəri kimi qəbul edilmişdir. Azərbaycanlı neftçi-alim Rusiya Beynəlxalq Mühəndislər Akademiyasının fəxri akademiki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvüdür. O, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin üzvü, "Azərbaycan Neft Təsərrüfatı" və "Azərbaycanın geofizika yenilikləri" jurnalları, Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətlərinin üzvü, Azərbaycan Geofizikləri Milli Komitəsinin, Azərbaycan Neftçi-Geoloqları Cəmiyyətinin, Amerika Neftçi-Geoloqları Assosiasiyasının, Avropa Alim-Geoloqları və Mühəndisləri Assosiasiyasının üzvüdür.

Azərbaycanda neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsinin bir çox nailiyyətləri dünya miqyasında da tanınıb yüksək dəyərləndirilən Xoşbəxt Yusifzadənin adı ilə bağlıdır. Görkəmli neftçi-geoloqun bilavasitə iştirakı və rəhbərliyi ilə Xəzər dənizi hövzəsinin Azərbaycan, Türkmənistan və Rusiya sektorlarında 20-dən artıq neft və qaz yatağı, o cümlədən dünyada məşhur olan "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilmiş və istismara daxil edilmişdir. 1988-ci ildən başlayaraq xarici şirkətlərlə birgə aparılmış, demək olar ki, bütün işlərdə, o cümlədən "Azəri-Çıraq-Günəşli" (dənizin dərin hissəsi) yataqlarının işlənməsində, "Əşrəfi" (1998-ci il), "Qarabağ" (1998-ci il), nəhəng "Şahdəniz" (1999-cu il), iri "Abşeron" (2011-ci il) kimi yataqların, eləcə də 2010-cu ildə ARDNŞ-nin öz gücü ilə açdığı "Ümid" yatağının kəşf edilməsində əvəzedilməz rolu olmuşdur.

Neftçıxarma sahəsində dünyanın görkəmli geoloq alimlərindən biri olan Xoşbəxt Yusifzadənin rəhbərliyi və bilavasitə iştirakı ilə dəniz neft-qaz yataqlarının işlənilməsinin nəzəri əsasları hazırlanmış və həyata keçirilmişdir.

Onun alimlər qrupu ilə birlikdə (M.T.Abbasov, F.H.Orucəliyev və b.) işləyib hazırladığı qaz kondensat yataqları ehtiyatlarının qiymətləndirilməsinin və yataqların işlənilməsinin nəzəri və təcrübi əsasları işi 1982-ci ildə Azərbaycanın Dövlət Mükafatına layiq görülmüşdür.

Son 60 ildə Azərbaycanın neft sənayesində bir çox belə yeni üsulun və mütərəqqi metodun istehsalatda tətbiqi nəticəsində Xəzər dənizində 20 neft və qaz-kondensat yatağı kəşf edilmişdir. Xəzərin Azərbaycan sektorunda "Bahar", "Səngəçal-dəniz", "Duvannı-dəniz", "Xərə-Zirə adası", "Xərə-Zirə-dəniz", "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz", "Şahdəniz", Xəzərin Rusiya sektorunda "İnçxe-dəniz", Qazaxıstan sektorunda "Rakuşeçnaya" və Türkmənistan sektorunda "LAM", "Qubkin", "Livanov", "Barinov" və s. yataqları bu sıradandır. Kəşfiyyatda ilk quyu ilə yatağın aşkar edilməsinin dəniz şəraitində xüsusilə böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Xoşbəxt Yusifzadə Xəzərin Azərbaycan sektorundakı perspektivli strukturlarda ilk quyunun yerinin seçilməsi prinsiplərini (tağdan uzaqlaşma prinsipi) işləyib hazırlamış və bu prinsip "Günəşli", "Azəri", "Çıraq" yataqlarında uğurla sınaqdan çıxarılmışdır.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" neft və qaz-kondensat yataqlarında axtarış-kəşfiyyat işlərinin xarici neft şirkətləri tərəfindən tətbiq edilən metodikası Xoşbəxt Yusifzadənin əvvəl Xəzər dənizindəki neft-qaz yataqları üçün işləyib hazırladığı və uzun illər tətbiq edilmiş axtarış-kəşfiyyat işlərinin metodikası ilə üst-üstə düşmüşdür.

Azərbaycanda neft və qazçıxarmanın inkişafına verdiyi böyük töhfələrə görə Xoşbəxt Yusifzadə bir sıra yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüşdür. O, keçmiş SSRİ dövlətinin 2 dəfə "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri, bir sıra medalları və fəxri mükafatlarla təltif edilmişdir. Müstəqillik illərində isə neftçi-alim Azərbaycanın "Şöhrət", "Şərəf", I dərəcəli "Əmək", "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. Xoşbəxt müəllimin şöhrət epopeyasını Heydər Əliyev mükafatı, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", Nizami Gəncəvi adına qızıl medal, UN Council for Public Awards beynəlxalq təşkilatının "Avropa xidmət" ordeni kimi nüfuzlu təltiflər də bəzəyir. 90 yaşlı əfsanəvi neftçinin bu günlərdə Prezident İlham Əliyevin sərəncamı ilə layiq görüldüyü "Heydər Əliyev" ordeni bu yüksək mükafatların layiqli tacı oldu.

Doğrudan da, bütün həyatını Azərbaycanda neft elminin və neftçıxarmanın uğurlarına həsr etmiş dünya şöhrətli neftçi-alim Xoşbəxt Yusifzadənin 90 illik mənalı və yeni nəsillərə örnək şərəfli ömür yolu milli neft salnaməmizin parlaq səhifəsidir. O, həqiqətən, Azərbaycan neft sənayesinin canlı əfsanəsidir.

**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**